https://doi.org/10.59849/3006-1342.2025.1.41
UOT 94

*Elmira Cavanşir qızı İsmayılova*
*Tarix üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Universiteti,*
*Ceyhun Hacıbəyli küç.71*
*E-mail: elmiraismayil@gmail.com*
*https://orcid.org/0000-0003-2412-5927*

# 2002-2007-Cİ İLLƏRDƏ TÜRKİYƏNİN QƏRB SİYASƏTİ

*2002-2007-ci illər arasında Türkiyə Respublikasının xarici siyasəti, xüsusilə də Qərb siyasəti 2002-ci ildə hakimiyyətə gələn Ədalət və İnkişaf Partiyasının (AKP) rəhbərliyi altında əsaslı dəyişikliklərə məruz qaldı. Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə qlobal nüfuzunu artırmaq və regional sabitliyi təmin etmək məqsədilə fəal, çoxşaxəli və dinamik bir xarici siyasət həyata keçirtməyə başladı. Bu dövrdə Türkiyənin xarici siyasəti Qərblə, xüsusilə Avropa İttifaqı və Amerika Birləşmiş Ştatları ilə əlaqələrin gücləndirilməsinə yönəlmişdi.*

*Qeyd olunan dövrdə Türkiyənin Qərb siyasətinin əsas elementlərindən biri Avropa İttifaqına üzv olmaqdan ibarət idi. Türkiyə, Avropa Komissiyasının tələblərinə uyğun olaraq, bir sıra sahələrdə islahatlar həyata keçirməyə başlamışdır. 2005-ci ildə Avropa İttifaqına üzvlük danışıqları başlandı, bu da ölkənin xarici siyasətində mühüm bir mərhələ oldu.*

*Həmçinin Amerika Birləşmiş Ştatları ilə münasibətlər də dəyişikliklərə məruz qalmışdır. 2003-cü ilin əvvəlində ABŞ İraqa hücum etdi. Türkiyə ABŞ-ın bölgədəki mühüm strateji tərəfdaşı olsa da, 2003-cü ildəki İraq müharibəsindən sonra ölkələr arasında münasibətlər gərginləşmişdir, çünki Türkiyə müharibə əməliyyatına qatılmaq barədə qərar qəbul etməmişdir. Buna baxmayaraq, təhlükəsizlik sahəsində əməkdaşlıq, terrorizmlə mübarizə və regional sabitlik məsələlərində əməkdaşlıq davam etmişdir.*

*Əlavə olaraq, Türkiyə Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) ilə əlaqələrini gücləndirməyə çalışırdı və ittifaqın hərbi və siyasi təşəbbüslərində fəal iştirak edirdi. 2002-2007-ci illərdə Türkiyənin Qərb siyasəti Avropa İttifaqına inteqrasiya ilə ABŞ və NATO ilə strateji əlaqələrin qorunması arasında tarazlığı saxlamağa yönəlmişdi.*

*Açar sözlər:* Türkiyə, diplomatiya, xarici siyasət, iqtisadi əməkdaşlıq, tərəfdaşlıq

## *Giriş*

2002-2007-ci illər ərzində Türkiyənin xarici siyasətində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Bu dövr ərzində Türkiyə, regional sabitlik, iqtisadi inkişaf və strateji müttəfiqlikləri vurğulayan, fəal və çoxşaxəli bir xarici siyasət həyata keçirmişdir. Bu siyasətin əsas tərkib hissəsi Türkiyənin beynəlxalq təşkilatlarla, xüsusilə də NATO ilə münasibətlərinin gücləndirilməsindən və Avropa İttifaqına üzv olmaqdan ibarət idi.

Türkiyə Avropa İttifaqına üzv olmaq üçün Aİ-nin müəyyən etdiyi siyasi, iqtisadi və hüquqi tələblərə cavab verən bir sıra əhəmiyyətli islahatlar həyata keçirmişdir. Bu islahatlar hüquq sistemi və iqtisadiyyat sahələrində aparılmış dəyişiklikləri əhatə edirdi. Türkiyənin Avropa İttifaqına üzv olmaq məqsədilə gördüyü bu işlər üzvlük danışıqlarında müəyyən irəliləyişlərə səbəb olmuşdur. Lakin, Kipr məsələsi bu prosesdə əsas əngəl olaraq qalmışdır. Kipr adasının şimalının tanınması məsələsi, xüsusilə 2004-cü ildə Kiprin Avropa İttifaqına üzv olmasından sonra, Türkiyə ilə bəzi Avropa İttifaqına üzv ölkələri arasında ciddi gərginliklərə səbəb olmuşdur. Bu problem Türkiyənin Aİ ilə əlaqələrini çətinləşdirmişdir.

Ümumiyyətlə, Kipr məsələsi Türkiyənin Avropa İttifaqına üzvlük yolundakı ən böyük maneələrdən biri olaraq qalır.

2003-cü ilin əvvəllərində ABŞ-ın İraqın şimalında həyata keçirəcəyi hərbi əməliyyatlar üçün strateji bir plan hazırlanmışdı. Bu əməliyyatların əsas məqsədi Səddam Hüseynin rejimini devirmək idi və, bu məqsədlə, ABŞ Türkiyənin ərazisindən İraqın şimalına qoşun göndərmək üçün istifadə etməyə çalışırdı. Lakin Türkiyə ABŞ-la strateji tərəfdaşlığa baxmayaraq, hərbi əməliyyatda iştirakın əleyhinə idi. Bu müdaxilənin bölgədə sabitliyin pozulması, o cümlədən kürd əhalisi üçün təhlükə yaradacağı və kürd separatizminin güclənməsi ehtimalına gətirib çıxaracağı və Türkiyənin daxili təhlükəsizliyi üçün mənfi nəticələr verə biləcəyi ilə əlaqəli narahatlıqlarla bağlı idi.

NATO kollektiv müdafiə ittifaqı olaraq, ümumiyyətlə, üzvləri arasında razılaşdırılmış qərarlar çərçivəsində fəaliyyət göstərir. Lakin İraqdakı müharibə vəziyyətində NATO üzvlərinin heç də hamısı ABŞ-ın fəaliyyəti ilə razılaşmadı. Xüsusilə, Fransa, Almaniya və bir sıra digər Avropa İttifaqı ölkələri BMT mandatı olmadan keçirilən hərbi əməliyyatı qeyri-qanuni hesab edərək, əleyhinə çıxış etmişdilər. Türkiyə NATO-nun üzvü olmasına baxmayaraq ABŞ-ın İraqa müdaxiləsini dəstəkləməmişdir. NATO ABŞ-ın İraq işğalı ilə əlaqəli olaraq Türkiyəyə lazım olan siyasi və hərbi dəstəyi təmin edə bilmədi. Türkiyənin təhlükəsizliyinə təhdid yaranacağı təqdirdə NATO-nun kollektiv dəstək verməsi ilə bağlı Türkiyənin müraciətinə cavab olaraq təşkilat müdaxilə etməkdən imtina etmişdir. NATO-nun İraqdakı əməliyyatda fəal iştirak etməyə razılıq verməməsi Türkiyənin narazılığını daha da artırmışdır. Türkiyə NATO müttəfiqlərindən dəstək gözləyirdi, lakin lazımi yardımı almadı ki, bu da həmin dövrdə alyansa inamın azalmasına səbəb olan amillərdən idi.

**1.** Avropa İttifaqına üzvlük prosesi

Türkiyə Avropa İttifaqına üzv kimi qəbul olmaq üçün Kopenhagen meyarlarına uyğunlaşmaq məqsədilə bir sıra demokratik və iqtisadi islahatlar həyata keçirmişdir. Bu islahatlar Türkiyənin siyasi, hüquqi və iqtisadi sistemlərini Avropa İttifaqı standartlarına uyğunlaşdırmağa yönəlmiş və ölkənin Avropaya inteqrasiya etmək niyyətini əks etdirmişdir. Bu prosesdə mühüm bir mərhələ 2005-ci ildə rəsmi üzvlük danışıqlarının başlanması oldu ki, bu da Türkiyənin xarici siyasətində əhəmiyyətli bir addım hesab edilirdi. Lakin bu irəliləyişə baxmayaraq Türkiyə Avropa İttifaqına üzvlük yolunda ciddi çətinliklərlə qarşılaşmışdır. Xüsusilə Kipr məsələsi səbəbindən bəzi Avropa İttifaqına üzv dövlətlərinin etirazları danışıqlar prosesini çətinləşdirmişdir.

Türkiyə Avropa İttifaqına üzvlük üçün rəsmi müraciətini 14 aprel 1987-ci ildə təqdim etsə də, namizəd ölkə statusunu əldə etməsi 12 il çəkmiş və yalnız 1999-cu ildə Finlandiyanın Helsinki şəhərində keçirilən zirvə toplantısında bu statusa layiq görülmüşdür [6]. Nəticədə, Ankara namizəd üzv kimi tanınsada Avropa İttifaqına on üç namizəd üzvündən yalnız Türkiyə ilə üzvlük danışıqların aparılması erkən hesab edilmişdir [5]. 17 dekabr 2004-cü ildə Brüsseldə keçirilən zirvə toplantısından sonra Avropa Şurası Türkiyənin Avropa İttifaqına qoşulması ilə bağlı danışıqların rəsmi olaraq 3 oktyabr 2005-ci il tarixində başlayacağını elan etmişdir. Qanunvericiliyin nəzərdən keçirilməsi prosesi isə 20 oktyabr 2005-ci ildə başlamış və 18 oktyabr 2006-cı ildə tamamlanmışdır.

2005-ci ildə Türkiyə Avropa İttifaqına üzvlük üçün rəsmi danışıqları bərpa etmişdir. Lakin 2007-ci ilə qədər bu proses ciddi maneələrlə üzləşmişdir. 2006-cı ilin dekabrında Avropa İttifaqının sammitində danışıqlar qismən dayandırılmışdır, çünki Türkiyə Avropa İttifaqının üzvü olan Kipr Respublikasına öz dəniz və hava limanlarını açmaqdan imtina etmişdir [9]. Bundan əlavə, bu dövrə qədər Türkiyə vətəndaşları arasında Aİ-ə üzvlük məsələsi əhəmiyyətli dərəcədə dəyişmişdi. Belə ki, əvvəllər əhalinin 75%-i bu ideyanı dəstəkləyirdisə, 2007-ci ilə qədər bu say 20% təşkil etmişdir. Bu amillər Türkiyə ilə Avropa İttifaqı arasında danışıqlar prosesini əhəmiyyətli dərəcədə çətinləşdirmişdir.

### 2. ABŞ-la münasibətlər

2002-2007-ci illər arasında Türkiyə, xüsusilə NATO çərçivəsində ABŞ ilə strateji əlaqələrini davam etdirmişdir. ABŞ, Səddam Hüseyn rejiminə qarşı müharibə apararkən Türkiyənin dəstəyini qazanmaq istəyirdi və bu məqsədlə iqtisadi yardımlardan tutmuş, Kipr məsələsinin həllinə və Avropa İttifaqına üzvlük məsələsində Türkiyəyə dəstək olacağını vəd etmişdir. Lakin Türkiyə parlamentinin 2003-cü ildə ABŞ-ın İraq müharibəsinə qatılmaq üçün Türkiyə ərazisini istifadə etmə təklifini qəbul etməməsi əlaqələrdə gərginlik yaratmışdı [4, s.170]. Buna baxmayaraq, Türkiyə PKK (Kürdüstan Fəhlə Partiyası) ilə mübarizə və regional təhlükəsizlik məsələləri üzrə ABŞ ilə əməkdaşlıq etməyə davam etmişdir. 2007-ci il noyabr ayının 2-də Ankarada keçirilən mətbuat konfransında ABŞ-ın Dövlət katibi Kondoliza Rays Vaşinqtonun Türkiyəyə PKK obyektləri ilə bağlı əməliyyat üçün istifadə oluna biləcək kəşfiyyat məlumatların təqdim edilməsi haqqında məlumat vermişdir [3].

Bundan əlavə, Türkiyə ABŞ ilə birgə Əfqanıstanda təhlükəsizlik təminatı üçün ISAF (Beynəlxalq Təhlükəsizliyə Dəstək Qüvvələri) missiyasında iştirak etmişdir. Türkiyə Əfqanıstanda həyata keçirilən bu beynəlxalq missiyada həm hərbi, həm də humanitar əməliyyatlara qatılaraq, bölgədəki sabitlik və təhlükəsizliyin təmin olunmasında mühüm rol oynamışdır. Bu kimi fəaliyyətlər Türkiyənin beynəlxalq aləmdə nüfuzunu artırmışdır və müttəfiqləri ilə əlaqələrini möhkəmləndirmişdir.

### 3. NATO və Transatlantik Münasibətlər

4 aprel 1949-cu ildə Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) yaranmışdır. Türkiyə və Yunanıstan 18 fevral 1952-ci ildə, Almaniya 1955-ci ildə, İspaniya isə 1982-ci ildə Alyansa üzv olmuşdur. Türkiyə Aralıq dənizi və Yaxın Şərqdə mühüm strateji mövqe tutaraq onilliklər ərzində ittifaqın sadiq üzvü olaraq qalır. O, xüsusilə "soyuq müharibə" dövründə NATO-nun təhlükəsizliyinə əhəmiyyətli töhfə vermiş və keçmiş Sovet İttifaqı ilə ən uzun sərhədin qorunmasını təmin etmişdir. Türkiyə ayrılan qoşunların sayı baxımından alyansda ön sıralardan birini tutmuşdur. Eyni zamanda, Ankara Qərb və Şərq arasında gərginliyin azaldılması üçün fəal addımlar atmışdır.

Soyuq Müharibənin sona çatmasından sonra NATO dörd genişlənmə dalğasından keçmişdir. 1999-cu ildə Çexiya, Macarıstan və Polşa, 2004-cü ildə Bolqarıstan, Estoniya, Latviya, Litva, Rumıniya, Slovakiya və Sloveniya, 2009-cu ildə Xorvatiya və Albaniya, 2017-ci ildə Monteneqro, 2020-ci ildə Şimali Makedoniya Alyansa qoşulmuşdur. Ən son genişlənmə dalğası 4 aprel 2023-cü ildə Finlandiyanın, 7 mart 2024-cü ildə isə İsveçin NATO-ya qoşulması ilə baş tutmuşdur. Bu genişlənmələrlə birlikdə NATO-nun üzv ölkələrinin sayı 32-yə çatmışdır.

Türkiyə NATO-nun üzvü olaraq Qara dəniz və Yaxın Şərq bölgələrində təhlükəsizliyin və enerji marşrutlarının qorunmasına mühüm töhfələr vermişdir. Ölkə strateji coğrafi mövqeyindən istifadə edərək regional sabitliyin təmin olunmasına və Qərb müttəfiqləri ilə birgə təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə çalışmışdır.

Ankara NATO-nun rəhbərliyi ilə həyata keçirilən sülhməramlı əməliyyatların fəal iştirakçısıdır. Türk ordusunun hərbi qulluqçuları keçmiş Yuqoslaviyada keçirilən əməliyyatda və Fars körfəzi bölgəsindəki birinci müharibədə iştirak etmişdirlər. Türkiyənin bölmələri Əfqanıstandakı Beynəlxalq Təhlükəsizliyə Dəstək Qüvvələrinin (ISAF) tərkibində fəaliyyət göstərir, həmçinin bu ölkənin Hərbi Hava Qüvvələri NATO-nun Liviyadakı əməliyyatına da cəlb olunmuşdur. Türkiyə NATO-nun nüvə sursatlarına malik olan beş üzv dövlətdən (Belçika, Almaniya, İtaliya və Niderland) biridir [8].

XXI əsrin əvvəllərindən Türkiyə, NATO və ABŞ arasındakı münasibətlərdə əhəmiyyətli dəyişikliklər yaşanmışdır. Bu dövrdə, həmçinin, Türkiyənin NATO-da hərbi və siyasi rolunun daha da güclənməsi müşahidə olunmuşdur. 2001-ci ilin 11 sentyabr tarixində ABŞ-da baş verən terror hücumu bu proseslərə əhəmiyyətli dərəcədə təsir etmişdir. Həmin hadisədən

sonra ABŞ NATO-dan təşkilatın 5-ci maddəsinin tətbiq edilməsini tələb etmişdir. Bu maddə bir üzvə qarşı edilən hücumun bütün üzvlərə qarşı yönəlmiş hücum kimi qəbul olunmasını vurğulayırdı. Nəticədə, ABŞ Əfqanıstanda Taliban rejimini devirmək məqsədilə “Azadlığa Dəstək Əməliyyatı”na başlamışdır, bu da terrorizmlə mübarizə istiqamətində atılmış mühüm addım idi.

Lakin, 2003-cü ildə ABŞ-ın İraqa müdaxiləsi öncəsi NATO-dan alınmayan dəstək, Türkiyədə NATO-ya qarşı skeptisizmin artmasına səbəb olmuşdur. İkinci Körfəz müharibəsindən əvvəl Türkiyənin İraqın sahibləndiyi iddia edilən Kütləvi Qırğın Silahlarından (KQŞ) əhalisini və ərazilərini qorunmaq məqsədilə NATO-nun 4-cü maddəsinin işə salınması tələbi bəzi Avropa ölkələrinin mənfi mövqeyi səbəbindən qəbul edilməmişdir. Bu vəziyyət Türkiyənin hələ də NATO-dan gözlədiyi dəstəyi ala bilməmə riskinin olduğunu göstərmişdir. Buna baxmayaraq, Türkiyə NATO-dan çıxmamış və təşkilata töhfə verməyə davam etmişdir [2, s. 107].

Türkiyə NATO-dan Bosniya və Herseqovinadakı vətəndaş müharibəsinin sona çatdırılmasında daha fəal olmağını tələb etmişdir. Türkiyə 1994-cü ildə “Sülh naminə tərəfdaşlıq” təşəbbüsünü dəstəkləmiş, 1998-ci ildə Türkiyədə təlim mərkəzi yaradılmış, Bosniya və Kosovodakı NATO hərbi əməliyyatlarında iştirak etmişdir. Bundan əlavə, Türkiyə 2002-ci ildə Praqada elan olunan və 2006-cı ildə Riqada aktivləşdirilən NATO Cavab Qüvvələrinə qatılmış və Avropadan kənarda bir çox bölgədə NATO əməliyyatlarında iştirak etmişdir [1, s. 25]. 2002-ci ilin noyabr ayında keçirilən Praqa Zirvə toplantısında Tərəfdaşlıq çərçivəsində əməkdaşlığın daha da dərinləşdirilməsi üçün yeni addımlar atılmışdır. Toplantı zamanı Avro-Atlantik Tərəfdaşlıq Şurasının (Euro-Atlantic Partnership Council, EAPC-AATŞ) və Sülh Naminə Tərəfdaşlığın (SNT) ətraflı təhlilindən sonra, hərbi islahatlar sahəsində tərəfdaş dövlətlərlə siyasi dialoqun gücləndirilməsi, əməkdaşlığın genişləndirilməsi, birgə fəaliyyətlərin planlaşdırılması, həyata keçirilməsi və nəzarəti tövsiyə olunmuşdur. Ayrıca, terrorizmə qarşı mübarizəni gücləndirmək məqsədilə Terrorizmə qarşı Tərəfdaşlıq Əməliyyat Planı (PAP-T) təklif edilmişdir. Terrorizmə qarşı Tərəfdaşlıq Fəaliyyət Planı (PAP-T) Alyans və Tərəfdaşlar arasında konkret məsələlər üzrə əməkdaşlığın nümunəsi idi.

2004-cü il NATO İstanbul Sammitində əməkdaşlığı daha da gücləndirmək məqsədilə bir sıra addımlar atmağı qərara almışdır. Qafqaz və Mərkəzi Asiya kimi strateji əhəmiyyətə malik bölgələrlə əməkdaşlığa xüsusi diqqətin yetirilməsi qərara alınmışdır [7].

Türkiyə ərazisində NATO-nun təlimləri keçirilməkədir. ABŞ-la bir sıra ikitərəfli razılaşmalar çərçivəsində Türkiyədə 60-dan çox aerodrom, hərbi-dəniz bazaları, xüsusi təyinatlı anbarlar və digər hərbi obyektlər tikilmişdir [8].

2002-2007-ci illər arasında Türkiyənin xarici siyasəti beynəlxalq münasibətlərdəki yerini möhkəmləndirən, lakin bir sıra çətinliklərlə üzləşən bir dövr olmuşdur. Bu dövrün sonunda Türkiyə həm NATO ilə olan əlaqələrini, həm də regional və beynəlxalq diplomatik münasibətlərini daha da inkişaf etdirərək öz xarici siyasətində müstəqil və balanslaşdırılmış bir yanaşma sərgiləmişdir.

## *Nəticə*

Türkiyənin Avropa İttifaqı, ABŞ və NATO ilə əlaqələri mürəkkəb və çoxşaxəlidir, tarixi və geosiyasi faktorlardan təsirlənmişdir. NATO-ya 1952-ci ildə üzv olan Türkiyə alyansın Cənubi-Şərqi Avropa və Yaxın Şərqdəki strateji dayağıdır. Soyuq müharibə dövründə Türkiyə NATO-nun təhlükəsizliyinə mühüm töhfələr verərək, keçmiş Sovet İttifaqı ilə ən uzun quru sərhədinin qorunmasında əsas rol oynamışdır. Alyans daxilində böyük qoşun kontingenti təmin edən Türkiyə NATO-nun vacib üzvlərindən biri kimi tanınır.

ABŞ-la münasibətlər uzunmüddətli müttəfiqlik çərçivəsində formalaşıb, lakin son illərdə bu əlaqələrdə gərginliklər yaranıb. ABŞ-ın PKK və YPG kimi qruplaşmalara dəstəyi

Türkiyənin ciddi narazılığına səbəb olmuşdur. Digər tərəfdən, Türkiyənin Rusiyadan S-400 raket sistemlərini alması Vaşinqtonda narahatlıq doğurmuşdur. Bununla belə, Türkiyə və ABŞ NATO çərçivəsində əməkdaşlığı davam etdirərək qlobal təhlükəsizlik məsələlərində birlik nümayiş etdirirlər.

Aİ ilə əlaqələr isə əsasən Türkiyənin üzvlük perspektivləri ətrafında qurulub. 1999-cu ildə Türkiyənin namizədlik statusu təsdiqlənsə də, illərdir üzvlük danışıqları irəliləməyib. Kipr məsələsinin həll olunmamış qalması Türkiyə- Avropa İttifaqı münasibətlərinə maneələr yaradır. Bununla yanaşı, Türkiyə Avropa İttifaqı ilə iqtisadi əməkdaşlıq və gömrük birliyi çərçivəsində sıx əlaqələr saxlayır.

Son illərdə Ankara Şimali Atlantika Alyansı çərçivəsində daha müstəqil mövqe nümayiş etdirir. Belə ki, Türkiyə Rusiya və Çin ilə hərbi əlaqələrini gücləndirib, İranın nüvə proqramına qarşı xüsusi mövqe tutub. Son dövrdə Türkiyənin Rusiya ilə yaxınlaşması Qərbi hərəkətə gətirib. ABŞ, Türkiyənin strateji əhəmiyyətini bir daha dərk edərək, Türkiyə ilə olan əlaqələrinə yenidən baxmaq məcburiyyətində qalmışdır. NATO ilə Türkiyə arasındakı narazılıqlar və anlaşılmazlıqlar əslində sadə səbəblərə əsaslanmır. Uzun illərdir terrorla mübarizə aparan Türkiyə, bəzən öz müttəfiqləri tərəfindən hədəf alınmış və hətta terrorun təşviq edilməsi kimi vəziyyətlərlə qarşılaşmışdır.

Türkiyənin NATO və Avropa İttifaqı ilə zaman-zaman yaşadığı gərginliklərə baxmayaraq, ölkə alyans daxilində strateji mövqeyini qorumağa çalışır. Ankara bir tərəfdən Qərblə əlaqələrini inkişaf etdirmək istəyir, digər tərəfdən isə müstəqil xarici siyasət yürütməklə Rusiya və Çin kimi ölkələrlə də əməkdaşlıq edir. Bu balanslı yanaşma Türkiyənin qlobal arenadakı rolunu daha da gücləndirir. Ümumilikdə, Türkiyə öz maraqlarını qoruyaraq həm NATO, həm ABŞ, həm də Avropa İttifaqı ilə əməkdaşlığını davam etdirir.

## ƏDƏBİYYAT


1. Armutlu A. NATO’s Changing Role and Türkiye: Security Dynamics and Evolution of Relations. Research Article / Middle East Pespectives, 2 (1), 2023 2-51
2. Çelik S. Tarihsel süreç içerisinde Türkiye’de NATO şüpheciliği. Karadeniz Teknik Üniversitesi Sosyal Bilimler Enstitüsü Sosyal Bilimler Dergisi, Yıl: 13 Sayı: 25 / Haziran 2023. pp. 95-115
3. Hyland F. Provision to Turkey of U.S. Intelligence on PKK Highlights Policy Shift. November 7, 2007, https://jamestown.org/program/provision-to-turkey-of-u-s-intelligence-on-pkk-highlights-policy-shift/ (18.02.2024)
4. Nəsirov E. “İraq böhranı” və ABŞ-Türkiyə münasibətləri. “Dirçəliş-XXI əsr” - 2008. - № 124 - 125. - s. 170
5. Park B. Turkey’s European Union Candidacy: From Luxembourg to Helsinki — to Ankara? International Studies Association 41st Annual Convention. Los Angeles, CA. March 14-18, 2000. https://ciaotest.cc.columbia.edu/isa/pab01/ (Müraciət tarixi: 01.03.2024)
6. Paşkin Z. XİN: Türkiyə Avropa İttifaqına üzv olmaq əzmini qoruyur. APA İnformasiya Agentliyi, 09 may 2024. https://apa.az/avropa/xin-turkiye-avropa-ittifaqina-uzv-olmaq-ezmini-qoruyur-841109 (Müraciət tarixi: 12.02.2024)
7. Turkey’s and NATO’s views on current issues of the Alliance. https://www.mfa.gov.tr/ii_---turkey_s-contributions-to-international-peace-keeping-activities.en.mfa (Müraciət tarixi: 25.03.2024)
8. Взаимодействие Турции и НАТО. https://нато.рф/ru/turkey.html (Müraciət tarixi: 01.05.2024)
9. Евросоюз готов возобновить переговоры с Турцией по вступлению в ЕС. 28 марта 2007. https://www.vedomosti.ru/library/news/ (Müraciət tarixi: 04.04.2024)

УДК 94

*Эльмира Джаваншир Исмаилова*
*Доктор философии по истории*

ЗАПАДНАЯ ПОЛИТИКА ТУРЦИИ В 2002-2007 ГОДАХ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Турция, дипломатия, внешняя политика, экономическое сотрудничество, партнерство

Западная политика Турции в период с 2002 по 2007 год претерпела значительные изменения, в первую очередь под влиянием прихода к власти Партии справедливости и развития (ПСР) во главе с Реджепом Таййипом Эрдоганом. Внешнеполитический курс Турции в это время был ориентирован на укрепление связей с Западом, особенно с Европейским Союзом и США. Одним из ключевых элементов западной политики Турции в этот период стало стремление к интеграции в Европейский Союз. Турция активно продвигала процесс вступления, выполняя требования Брюсселя, в том числе в области прав человека, реформирования судебной системы и др. В 2005 году начались переговоры о вступлении в ЕС, что стало важным этапом в ее внешней политике.

Отношения с США также претерпели изменения. Турция оставалась важным стратегическим союзником США в регионе, однако после войны в Ираке 2003 года отношения стали более напряженными из-за разногласий по поводу участия Турции в военной операции. Несмотря на это, сотрудничество в области безопасности, борьбы с терроризмом и региональной стабильности продолжалось.

Кроме того, Турция стремилась укрепить свои связи с НАТО, активизируя участие в различных военных и политических инициативах альянса. Западная политика Турции в 2002-2007 годах была направлена на сохранение равновесия между стремлением к европейской интеграции и необходимостью поддержания стратегических отношений с США и НАТО.

UDC 94(479.24).

*Elmira Javanshir İsmayilova*
*Doctor of philosophy in History*

TÜRKIYE’S WESTERN POLICY IN 2002-2007

*SUMMARY*

*Key words:* Türkiye, diplomacy, foreign policy, economic cooperation, partnership

Türkiye's Western policy underwent significant changes from 2002 to 2007, primarily due to the influence of the Justice and Development Party (AKP) coming to power under the leadership of Recep Tayyip Erdoğan. During this period, Türkiye's foreign policy was focused on strengthening ties with the West, particularly with the European Union and the United States. One of the key elements of Türkiye's Western policy during this time was its aim to integrate into the European Union. Türkiye actively promoted the accession process, meeting the requirements of Brussels, including in areas such as human rights, judicial reforms, and others. In 2005, accession negotiations began, marking an important stage in its foreign policy.

Relations with the United States also underwent changes. Türkiye remained an important strategic ally of the US in the region; however, after the 2003 Iraq War, relations became more strained due to disagreements over Türkiye's participation in the military operation. Despite this, cooperation in areas of security, counter-terrorism, and regional stability continued.

Furthermore, Türkiye sought to strengthen its ties with NATO, increasing its involvement in various military and political initiatives within the alliance. Türkiye's Western policy during 2002-2007 aimed to balance the pursuit of European integration with the need to maintain strategic relations with the US and NATO.

***Daxil oldu: 10.02.2025-ci il***